İclasda maraq doğuran amillərdən biri Nazirlər Kabinetinin yeni tərkibinin islahatlara meyilli olması, zamanın çağırışlarına operativ reaksiya vermək bacarığıdır. Tam əminliklə demək mümkündür ki, dövlət başçısının hökumətdə apardığı kadr islahatları bəhrəsini verməkdədir. Bu baxımdan “Elektron su təsərrüfatı” informasiya sisteminin yaradılması, su obyektlərində müasir ölçmə cihazlarının quraşdırılmasının həyata keçirilməsi diqqət çəkir. Nazirlər Kabinetində ölkədə su ehtiyatlarının artırılması və bu istiqamətdə dağ çaylarının sularının yığılması məqsədi ilə relyefə uyğun sututarlar üçün prioritet layihələrə, habelə içməli su təchizatı üçün yeni mənbələrin müəyyən edilməsinə dair təkliflər hazırlanır.

Azərbaycan Prezidenti iclasda bildirdi ki, hazırlanan proqram üç yerə bölünməlidir: “Operativ həlli mümkün olan məsələlər, ortamüddətli və strateji uzunmüddətli məsələlər”. Dövlət başçısının fikrincə, belə yanaşma bu sahədə ciddi dönüş yaratmağa imkan verəcək.

Beləliklə, kənd təsərrüfatının intensiv yollarla inkişafı prioritet məsələdir. Bu halda su mənbələrinin düzgün müəyyən edilməsi, su itkilərinin azaldılması və suyun əkin sahəsinə çatdırılması istiqamətində görülən bütün işlər ən müasir dünya təcrübəsindən faydalanmalıdır.

Nazirlər Kabinetinin sonuncu iclası belə qənaətə gəlməyə əsas verir ki, Ermənistanın işğalçılıq siysətinin və koronavirus pandemiyasının vurduğu ağır zərbələrə baxmayaraq, Azərbaycan dövləti iqtisadi islahatlara sadiqdir və o, qarşısına çıxan bütün maneələri, o cümlədən su qıtlığı problemini aşmaq gücünə qadirdir.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

---

Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2020-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir

## Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün TƏDBİRLƏR PLANI

| № | Tədbirin adı | İcraçılar | İcra müddəti |
|---|---|---|---|
| **1. Su ehtiyatlarının qiymətləndirilməsi, mühafizəsi və onlardan davamlı istifadə** | | | |
| 1.1. | Su ehtiyatlarının qiymətləndirilməsi, inventarlaşdırılması, modelləşdirilməsi və bununla bağlı məlumatların “Elektron su təsərrüfatı” informasiya sisteminə inteqrasiyası | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2020-2022 |
| 1.2. | Ölkənin əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatlarının qiymətləndirilməsi üçün müasir texnologiyalara əsaslanan ölçmə cihazlarının quraşdırılması, istismarı, ölçmələrə nəzarətin həyata keçirilməsi və bununla bağlı məlumatların onlayn rejimdə “Elektron su təsərrüfatı” informasiya sisteminə inteqrasiyası | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Energetika Nazirliyi, “Azmelsutəsərrüfat” ASC, “Azərsu” ASC, “Azərenerji” ASC, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2020-ci ilin avqust-dekabr ayları |
| 1.3. | Kür çayı hövzəsinin su ehtiyatlarının mühafizəsi və davamlı istifadəsi sahəsində ölkələrarası əməkdaşlığın gücləndirilməsinə dair təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Xarici İşlər Nazirliyi | 2020-ci ilin avqust-dekabr ayları |
| 1.4. | Ölkənin əsas hidroqovşaqlarının texniki təhlükəsizliyinin qiymətləndirilməsi və müvafiq təkliflərin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, “Azərenerji” ASC, “Azmelsutəsərrüfat” ASC | 2020-2022 |
| 1.5. | Hidrotexniki qurğuların mühafizəsinin gücləndirilməsi və həmin qurğulara mümkün mənfi təsirin qarşısının alınması baxımından qum-çınqıl karxanalarının fəaliyyətinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı qanunvericilikdə dəyişiklik edilməsinə dair təkliflərin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2020-ci ilin avqust-sentyabr ayları |
| 1.6. | Alternativ mənbələrdən, o cümlədən qrunt, təmizlənmiş tullantı, kollektor-drenajsularından,balıqçılıq təsərrüfatlarında istifadə olunan sulardan və Xəzər dənizinin suyundan istifadə ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, “Azmelsutəsərrüfat” ASC, “Azərsu” ASC, yerli icra hakimiyyəti orqanları | 2020-ci ilin avqust-oktyabr ayları |
| 1.7. | Ölkə ərazisində antropogen təsirlər nəticəsində formalaşan sututarların suyundan istifadə imkanlarının araşdırılması və müvafiq tədbirlər görülməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, “Azmelsutəsərrüfat” ASC, “Azərsu” ASC | 2020-ci ilin avqust-dekabr ayları |
| 1.8. | Bakı Metropoliteni ərazisində yeraltı sular və yağış suları hesabına formalaşan qrunt sularının tullantı suları şəbəkəsinə axıdılmadan xaric edilməsi və həmin sulardan istifadə imkanlarının araşdırılması və müvafiq tədbirlər görülməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, “Bakı Metropoliteni” QSC, “Azərsu” ASC, Bakı Şəhər İcra Hakimiyyəti | mütəmadi |
| 1.9. | Subartezian və artezian quyularının sifarişi, layihələndirilməsi, qazılması və istismarı qaydasının layihəsinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, “Azmelsutəsərrüfat” ASC, “Azərsu” ASC | 2020-ci ilin avqust-oktyabr ayları |
| 1.10. | Mingəçevir su anbarında Yuxarı Qarabağ kanalının baş suqəbuledici qurğusunun yenidən qurulması | Fövqəladə Hallar Nazirliyi, “Azmelsutəsərrüfat” ASC, “Azərenerji” ASC | 2020-ci ilin avqust-dekabr ayları |
| **2. Su təsərrüfatının elektronlaşdırılması, uçotun təkmilləşdirilməsi və informasiya təminatı** | | | |
| 2.1. | “Elektron su təsərrüfatı” informasiya sistemi haqqında əsasnamə layihəsinin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2020-ci ilin avqust-dekabr ayları |
| 2.2. | “Elektron su təsərrüfatı” informasiya sisteminin (ESTİS) yaradılması, ölkə üzrə su təsərrüfatı balansının elektronlaşdırılaraq ESTİS-ə daxil edilməsi və müvafiq informasiya sistemlərinin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə ESTİS-ə inteqrasiyası | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, “Azmelsutəsərrüfat” ASC, “Azərsu” ASC | 2020-ci ilin avqust ayı |
| 2.3. | Fəaliyyət istiqamətlərinə uyğun olaraq su və su təsərrüfatı obyektlərindənnəzarətdənkənar istifadənin aradan qaldırılması, inventarlaşdırmanın aparılması, uçotun təkmilləşdirilməsi üçün təxirəsalınmaz tədbirlər görülməsi və bu istiqamətdə təkliflərin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, “Azmelsutəsərrüfat” ASC, “Azərsu” ASC, yerli icra hakimiyyəti orqanları | 2020-ci ilin avqust ayı |
| 2.4. | “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”nın layihəsinin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Maliyyə Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, “Azmelsutəsərrüfat” ASC, “Azərsu” ASC, “Azərenerji” ASC | 2020 - 2021 |
| **3. Energetika sahəsində su ehtiyatlarından istifadədə səmərəliliyin artırılması** | | | |
| 3.1. | İstilik elektrik stansiyalarının soyutma sistemlərinin müasirləşdirilməsi ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Energetika Nazirliyi, “Azərenerji” ASC | 2020-ci ilin avqust -dekabr ayları |
| 3.2. | İstilik elektrik stansiyalarında soyutma məqsədilə sudan qənaətli istifadənin təmin edilməsi ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Energetika Nazirliyi, “Azərenerji” ASC | 2020-ci ilin avqust-dekabr ayları |
| 3.3. | Ölkə üzrə elektrik enerjisi tezliyinin müstəqil tənzimlənməsi ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Energetika Nazirliyi, “Azərenerji” ASC | 2020-ci ilin avqust-dekabr ayları |
| **4. Suvarma üçün sudan səmərəli və qənaətli istifadənin təmin edilməsi, su ehtiyatlarının yaradılması** | | | |
| 4.1. | Kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən suvarmada müasir texnologiyaların tətbiqinin təşviqi ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2020-ci ilin avqust-oktyabr ayları |
| 4.2. | Suvarma suyundan güzəştli istifadənin yeni mexanizmi ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, “Azmelsutəsərrüfat” ASC | 2020-ci ilin avqust-dekabr ayları |
| 4.3. | Kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün suvarma qrafiklərinin tərtibi, mütəmadi yenilənməsi və “Elektron kənd təsərrüfatı” informasiya sisteminə inteqrasiyası | Kənd Təsərrüfatı Nazirliyi, “Azmelsutəsərrüfat” ASC | mütəmadi |
| 4.4. | Suvarılan torpaqlarda əkin strukturunun müəyyən edilməsi və ona uyğun tərtib olunan suvarma qrafikləri əsasında suvarma dövrü başlamamışdan üç ay əvvəl kənd təsərrüfatı bitkilərinin suvarılması üçün tələb olunan su sifarişinin formalaşdırılması və suyun verilməsinin bu sifarişə uyğun həyata keçirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, “Azmelsutəsərrüfat” ASC | mütəmadi |
| 4.5. | Su itkilərinin azaldılması və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə bu Tədbirlər Planına Əlavə 1-də nəzərdə tutulan hidroqovşaq, kollektor və suvarma kanallarının yenidən qurulması üçün texniki-iqtisadi əsaslandırmanın hazırlanması və layihələndirmənin həyata keçirilməsi | “Azmelsutəsərrüfat” ASC, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi | 2020 - 2021 |
| 4.6. | Ölkədə su ehtiyatlarının artırılması və bu istiqamətdə dağ çayları sularının yığılması üçün relyefə uyğun bu Tədbirlər Planına Əlavə 2-də nəzərdə tutulan su anbarlarının yaradılması məqsədilə texniki-iqtisadi əsaslandırmanın hazırlanması və layihələndirmənin həyata keçirilməsi | “Azmelsutəsərrüfat” ASC, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi | 2020-2021 |
| **5. İçməli su təchizatı sisteminin təkmilləşdirilməsi** | | | |
| 5.1. | II Bakı su kəmərinin məhsuldarlığının artırılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması və layihələndirmənin həyata keçirilməsi | “Azərsu” ASC, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 2020-ci ilin avqust-sentyabr ayları |
| 5.2. | Neftçala şəhərinin içməli su təchizatı ilə bağlı proqramın icrasının başa çatdırılması | “Azərsu” ASC | 2020-ci il dekabrın 1-dək |
| 5.3. | Oğuz-Qəbələ-Bakı su kəmərinin məhsuldarlığının artırılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması və layihələndirmənin həyata keçirilməsi | “Azərsu” ASC, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi | 2020-ci ilin avqust-sentyabr ayları |
| 5.4. | III Şollar su kəmərinin mənbəyinin yaradılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması və layihələndirmənin həyata keçirilməsi | “Azərsu” ASC, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 2020-ci ilin avqust-dekabr ayları |
| 5.5. | İçməli su təchizatı layihələri icra edilmiş və icra edilməsi nəzərdə tutulan şəhərlərin su mənbələrində iqlim dəyişmələrinin təsiri (quraqlıq, sel-daşqın, suyun keyfiyyəti və s.) qiymətləndirilməklə dayanıqlığın təmin edilməsi üzrə texniki-iqtisadi əsaslandırmanın hazırlanması və layihələndirmənin həyata keçirilməsi | “Azərsu” ASC, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2020-ci ilin avqust-dekabr ayları |
| 5.6. | Kür-Araz ovalığında yerləşən və içməli su tələbatı Kür çayından təmin edilən yaşayış məntəqələrinin su təchizatının alternativ mənbələr hesabına təmin edilməsi ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | “Azərsu” ASC, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2020-ci ilin avqust-dekabr ayları |
| 5.7. | İçməli su təchizatı sahəsində sayğaclaşmanın başa çatdırılması | “Azərsu” ASC | 2020 - 2021 |
| 5.8. | Əhalinin içməli su ilə təmin olunması məqsədilə regionlarda quraşdırılmış modul tipli sutəmizləyici qurğuların fəaliyyətinin yaxşılaşdırılması üçün Tədbirlər Planının hazırlanması və icrasının təmin edilməsi | “Azərsu” ASC, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi | mütəmadi |
| **6. İnfrastruktur layihələrinin maliyyələşdirilməsi sahəsində səmərəliliyin artırılması** | | | |
| 6.1. | Su təsərrüfatı sahəsində infrastruktur layihələrinin maliyyələşdirilməsi ilə bağlı dövlət investisiya proqramının tərtibi və icrasına nəzarətin gücləndirilməsi | İqtisadiyyat Nazirliyi,Maliyyə Nazirliyi | mütəmadi |
| 6.2. | İçməli su təchizatı ilə bağlı bitmiş, davam edən və yeni infrastruktur layihələrinin təhlil olunması və dövlət investisiya proqramının tərtibi zamanı əhalinin artan tələbatının nəzərə alınması | “Azərsu” ASC, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | mütəmadi |
| **7. Məlumatlandırma və maarifləndirmə** | | | |
| 7.1. | Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi sahəsində görülən işlər barədə ictimaiyyətin məlumatlandırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, “Azmelsutəsərrüfat” ASC, “Azərsu” ASC, “Azərenerji” ASC, yerli icra hakimiyyəti orqanları | mütəmadi |
| 7.2. | Sudan istifadə ilə əlaqədar istehlakçıların müraciətlərinin operativ qaydada qəbulu, baxılma və cavablandırılması məqsədilə Çağrı mərkəzinin müasir tələblərə uyğun təşkili | “Azmelsutəsərrüfat” ASC, “Azərsu” ASC | 2020-ci ilin avqust ayı |
| 7.3. | İçməli su təchizatı sahəsində sudan qənaətli və səmərəli istifadə ilə bağlı istehlakçıların maarifləndirilməsi | “Azərsu” ASC | mütəmadi |
| 7.4. | Sudan qənaətli və səmərəli istifadə, suvarma qrafikləri üzrə növbəliliyə riayət olunması ilə bağlı kənd təsərrüfatı məhsulları istehsalçılarının maarifləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, “Azmelsutəsərrüfat” ASC | mütəmadi |
| 7.5. | Təhsil müəssisələrində su ehtiyatlarının idarə olunması,sudan qənaətli və səmərəli istifadə ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | mütəmadi |



# “Azərbaycan” qəzetinin əməkdaşları dövlət başçısına minnətdarlıq edirlər

Hörmətli cənab Prezident!

Dövlətə rəhbərlik edəndən bəri yürütdüyünüz siyasət cəmiyyət həyatının bütün sahələrində sistemli islahatlarla müşayiət olunur. İslahat prosesi mediadan da yan keçmir. Milli mətbuat ənənələrinin qorunub saxlanmasını, medianın ictimai-siyasi həyatda yerini və müasir cəmiyyət quruculuğu prosesində rolunu həmişə diqqət mərkəzində saxlayırsınız. Dövlətçilik ənənələrinə bağlı olan, milli maraqları rəhbər tutan mətbuatın inkişafını prioritet vəzifə kimi qarşıya qoyaraq ardıcıl tədbirlər görürsünüz.

Bu baxımdan milli mətbuatımızın 145 illik yubileyinin keçirilməsi haqqında verdiyiniz Sərəncam ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Yubiley ölkəmizdə geniş qeyd olundu. Bu münasibətlə milli mətbuatın inkişafında xidmətləri olan bir sıra jurnalistləri mükafatlandırmısınız. Təltif olunanlar arasında mən də varam. Məni “Əməkdar jurnalist” fəxri adına layiq gördüyünüzə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

*Hörmətlə,*

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan” qəzetinin şöbə müdiri***

* * *

Hörmətli cənab Prezident!

Sizin fədakar, yorulmaz səyləriniz, uğurlu daxili və xarici siyasətiniz nəticəsində Azərbaycan bu gün regionda, eləcə də dünyada güclü və söz sahibi olan dövlətdir.

Bu günlərdə Tovuz rayonu istiqamətində baş verən hadisələr, verdiyimiz itkilər bizi dərindən üzdü, amma digər tərəfdən qüdrətli ordumuzun düşməni ağır məğlubiyyətə uğratması xalqımıza böyük fərəh və qürur hissi yaşatdı.

Baş verən hadisələr bir daha göstərdi ki, Azərbaycan xalqı Sizin ətrafınızda yumruq kimi birləşmişdir.

Cənab Prezident, iyulun 22-də, milli mətbuatımızın 145-ci ildönümündə Siz mənim fəaliyyətimə yüksək qiymət verərək “Tərəqqi” medalı ilə təltif etmisiniz. Buna görə dərin minnətdarlığımı bildirirəm.

Sizin verdiyiniz belə yüksək qiymət, əlbəttə ki, məni daha da ruhlandırır. Bundan sonra da doğma ölkəmizi inkişaf etdirmək naminə fəaliyyətimi davam etdirəcəyəm.

Cənab Prezident, biz hər zaman Sizinləyik, Vətənimiz Azərbaycanın xidmətindəyik. Tanrı Sizi, dövlətimizi və xalqımızı qorusun!

*Hörmətlə,*

***Rizvan CƏFƏROV,***
***“Azərbaycan” qəzetinin müxbiri***

* * *

Hörmətli cənab Prezident!

Azərbaycan milli mətbuatının 145 illik yubileyi münasibəti ilə məni “Tərəqqi” medalına layiq görməyinizdən hədsiz dərəcədə qürur hissi keçirdim. Azərbaycan mətbuatındakı əməyimə böyük qiymət verdiyiniz üçün Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Siz həmişə Azərbaycan mətbuatına xüsusi diqqət və qayğı göstərmisiniz. Kütləvi informasiya vasitələrinin inkişafına ayırdığınız çoxsaylı dövlət yardımları, mətbuat işçilərinin mənzil-məişət problemlərinin həlli, jurnalistlərin fəxri adlar, dövlət mükafatları ilə təltif edilməsi bunun əyani təsdiqidir. Təsadüfi deyil ki, Siz jurnalistləri öz köməkçiniz adlandırırsınız, onlar isə Sizi mətbuatın dostu. Sizin bu ali etimadınız üzərimizə çox böyük məsuliyyət, şərəfli vəzifələr qoyur, daha əzmlə işləməyə yeni stimul və ruh verir. Sizi əmin etmək istəyirəm ki, mən də gələcək fəaliyyətimdə bu etimadı var gücümlə doğruldacağam.

Hörmətli cənab Prezident! Bu mükafatı ilk növbədə çalışdığım rəsmi dövlət qəzeti “Azərbaycan”ın kollektivinə, eyni zamanda doğma yurd-yuvası daşnak ermənilər tərəfindən işğala məruz qalan rayonların məcburi köçkün jurnalistlərinə verilən yüksək dəyər kimi də qiymətləndirir və Qələbə müjdəli xəbərlərlə Ali Baş Komandanımızı və xalqımızı sevindirməyi arzulayıram!

*Hörmətlə,*

***Məhəmməd SADIQOV,***
***“Azərbaycan” qəzetinin müxbiri***

* * *

Hörmətli cənab Prezident!

Sözə və mətbuata Sizin verdiyiniz dəyər həmişə öz aktuallığı ilə fərqlənib. Azərbaycanda milli mətbuatın 145 illik yubileyi ilə bağlı verdiyiniz sərəncamda adımın olduğunu gördükdə çox sevindim. Bu sevincin mənbəyi Sizsiniz və Sizin mətbuata göstərdiyiniz diqqət və qayğıdır.

Bu çətin pandemiya dövründə bizə verdiyiniz dəyərə görə minnətdarlığımı bildirirəm.

Allah Sizi qorusun, cənab Prezident!

*Hörmətlə,*

***Akif ƏLİYEV,***
***“Azərbaycan” qəzetinin müxbiri***

# Azərbaycan nümunəsi

## İlham Əliyevin pandemiyaya qarşı effektiv mübarizə strategiyası uğurlu nəticələr verir

*Əvvəli 1-ci səh.*

Paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradıldı. Xüsusi rejimli xəstəxanalar müvafiq dərman və qoruyucu vasitələrlə təmin olundu, hər bir karantin zonasına tibb müəssisələrinin rəhbərləri, həkim və orta tibb heyəti ezam edildi, virusla mübarizədə digər dövlətlərdəki həkim-ekspertlərlə təcrübə mübadiləsi aparıldı. Ölkədəki tələbatı qarşılamaq məqsədi ilə qoruyucu və dezinfeksiya vasitələrinin istehsalı təşkil olundu və bu sahədə olan problem aradan qaldırıldı. Qısa müddətdə 20-dən artıq xəstəxana, o cümlədən ən müasir standartlara cavab verən “Yeni klinika” koronavirus xəstələrinin ixtiyarına verildi.

Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq qurumlarla COVID-19 virusu ilə mübarizə çərçivəsində sıx əməkdaşlıq quruldu. Ümumdünya Səhiyyə Təşkilatının Bakı ofisi və Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan xəstəxanalarında COVID-19-a qarşı mübarizə tədbirləri ilə əlaqədar əsas bacarıqları gücləndirmək üçün REACT-C19 layihəsi həyata keçirildi. 19 mütəxəssis Türkiyədə təlim keçərək ölkədəki xüsusi rejimli xəstəxanalarda fəaliyyətə başladı. Prezident İlham Əliyevin Nazirlər Kabineti yanında Operativ Qərargaha göstərişinə uyğun olaraq, bir müddət öncə yeni növ koronavirusla mübarizə sahəsində çalışan Türkiyə, Rusiya, Kubadan mütəxəssislər də Azərbaycanda səfərdə olub, təcrübə mübadiləsi apardılar.

Dövlət başçısı İlham Əliyevin tapşırığına əsasən, bölgələri də əhatə etməklə ölkədə 10 modul tipli xəstəxananın quraşdırılmasına başlandı. Onlardan beşi - ikisi Bakıda, biri Sumqayıtda, biri Gəncədə, biri Abşeron rayonunda artıq fəaliyyətdədir.

Azərbaycan dövlətinin koronavirus pandemiyasının yayıldığı ilk günlərdən onunla mübarizə istiqamətində atdığı çox mühüm addımlar sırasında modul tipli xəstəxanaların yaradılması böyük əhəmiyyət daşıyır. Belə modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmədə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır. Bu xəstəxana kompleksləri ölkənin səhiyyə sisteminə əlavə 2000 çarpayılıq ehtiyat yaradır. Bir ay ərzində istifadəyə veriləcək daha bir modul tipli xəstəxana 1300 yerlik olacaq. Xəstəxanaların tez bir zamanda inşa edilməsi göstərir ki, Azərbaycan hətta seytnot vəziyyətdə lazımi addımları ata bilər.

Bundan başqa, əlavə on modul tipli xəstəxananın da tikintisi nəzərdə tutulur. Bunu Azərbaycan Prezidenti İlham Əliyev iyulun 6-da Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında bildirmişdi.

Hazırda ölkəmizin 45 xəstəxanasında koronavirus xəstələri müalicə alırlar. O xəstəxanalardan 36-sı son illərdə inşa edilib. Martda istifadəyə verilmiş “Yeni klinika”da 350 xəstə müalicə alır. Qısa müddət ərzində orada çarpayı sayının 700-750-yə çatdırılması nəzərdə tutulur. Beləliklə, ehtiyac yaranacağı təqdirdə 5 mindən çox xəstənin yerləşdirilməsi üçün potensial mövcuddur.

Yaxın vaxtlarda ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün əlavə yeni laboratoriyalar fəaliyyətə başlayacaq. Fevral ayında Azərbaycanda cəmi altı laboratoriya mövcud olduğu halda, indi onların sayı 29-a çatıb və daha 15 yeni laboratoriya sifariş edilib. Bununla da laboratoriyaların sayı 44-ə çatacaq. Bu günə qədər ölkədə təqribən 700 minə qədər test aparılıb və adambaşına düşən testlərin sayına görə Azərbaycan dünyada ön sıralardadır.

Koronavirusla mübarizədə Azərbaycanın tibbi resursları kifayət qədərdir. Evdə və ya xəstəxanada olmasından asılı olmayaraq, ölkədəki bütün COVID-19 xəstələrinin müalicəsi dövlət hesabına həyata keçirilir. Bunun üçün ölkədə lazımi qədər dərman ehtiyatı da var.

### Ölkə rəhbəri və Birinci vitse-prezident hər bir vətəndaşın sağlamlığına diqqətlə yanaşır

Azərbaycanda virusla mübarizə hələ də qətiyyətlə davam etdirilir. Qlobal böhrandan minimum itkilərlə çıxmaq üçün bütün qüvvələr COVID-19-a qarşı səfərbər edilib. Mərhələli şəkildə həyata keçirilən təsirli tədbirlər sayəsində demək olar ki, yeni növ koronavirus ölkəmizdə nəzarət altındadır. Mütəmadi olaraq epidemioloji vəziyyət dəyərləndirilir, vəziyyətə uyğun addımlar atılır. Lakin xatırladaq ki, mayın əvvəlindən həyata keçirilən yumşalma tədbirlərini bir çox vətəndaşlar infeksiyanın yox olması kimi anlayaraq, qoyulan qaydalara riayət etmədi, sosial məsafə saxlanılmadı, maska taxılmadı, nəticədə iyun ayının ortalarından koronavirus ölkə ərazisində sürətlə yayılmağa başladı, gündəlik təsdiq edilmiş yoluxma hallarının sayı 500-ü ötdü, virus qurbanlarının sayı çoxaldı. Ölkədəki epidemioloji vəziyyət qənaətbəxş olmadığı üçün də xüsusi karantin rejimi yenidən sərtləşdirildi. Artıq iki həftədir ki, bu qərarın müsbət nəticəsini görürük. Əldə olunan müsbət dinamika nəticəsində virusa yoluxma hallarının ikiqat artımının qarşısı alınıb, gündəlik yoluxma sayı sabitləşib, əvvəlki mənfi tendensiya aradan qalxıb. İyulun 13-dən isə koronavirus infeksiyasından sağalanların sayında müsbət dinamika müşahidə olunur. Sağalan xəstələrin sayı gündəlik yoluxma hallarını üstələyir. Aktiv koronavirus xəstələrinin sayı 7 mindən aşağı düşüb. Koronavirusla əlaqədar reanimasiya şöbəsində müalicə alan və süni tənəffüs cihazına qoşulan xəstələrin də sayı azalıb.

İlk gündən etibarən ölkəmizdə virusdan sağalanların sayının yüksək olmasında, ağır xəstələrin həyata qaytarılmasında həkimlərin, tibb işçilərinin fədakar əməyi danılmazdır. Məhz onların sayəsində 22 mindən çox vətəndaşımız təhlükəli bəladan qurtulub. Həkimlərimizin virusa qarşı mübarizəsi, vətəndaşlarımızın sağalması uğrunda fədakarlıq etmələri dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Dövlət başçısı və Birinci vitse-prezident Mehriban Əliyeva hər bir vətəndaşın sağlamlığına diqqətlə, həkimlərin səhhətinə isə xüsusi həssaslıqla yanaşırlar. Xüsusi rejimli xəstəxanalarda pandemiya ilə mübarizə aparan bütün həkimlərin səhhəti Mehriban Əliyevanın tapşırığına əsasən, daim diqqət mərkəzində saxlanılır.

### Müsbət dinamika düzgün qərarların nəticəsidir

Əminliklə demək olar ki, İlham Əliyevin pandemiyaya qarşı effektiv mübarizə strategiyası uğurlu nəticələr verir. Ölkədə koronavirusla bağlı müsbət tendensiya əldə olunub. Bu da məhdudiyyətlərin tətbiqinin, karantinin sərtləşdirilməsinin düzgün qərar olduğunu deməyə əsas verir. Son günlər qeydə alınan müsbət dəyişikliklər atılan addımların düzgün olduğunu göstərir.

Hazırda əsas şərt əldə olunan bu müsbət dinamikanı qoruyub saxlamaqdır. Sərt karantin rejiminin yenidən uzadılması məhz pandemiyanın təsirinin daha da zəiflədilməsinə, yoluxma zəncirini mümkün olduğu qədər qırmağa hesablanıb. Yoluxma sayı azalsa və sərt karantin rejimində bəzi məhdudiyyətlər aradan qaldırılsa da, arxayınlaşmaq hələ tezdir. Cüzi laqeydlik, məsuliyyətsizlik çəkilən bu qədər zəhmətin hədər getməsinə, yoluxma sayının yenidən artmasına səbəb ola bilər. Ona görə də mübarizəni sonacan aparmalı, xüsusi karantin rejiminin qaydalarına bundan sonra da ciddi əməl etməliyik.

Pandemiyanın ilk günlərindən hazırkı dövrə qədər onun qarşısının alınması üçün dövlət tərəfindən bütün lazımi addımlar atılıb. Bununla əlaqədar görülən bütün işlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədini daşıyıb. Bu gün Azərbaycan dövləti üçün ən prioritet məsələ vətəndaşlarının koronavirus infeksiyasından qorunmasıdır. Dövlət tərəfindən qəbul edilən bütün qərarların arxasında məhz əhalinin sağlamlığı, rifahı, təhlükəsizliyinin təmini dayanır. Ölkəmiz qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirir. Vətəndaşlar da öz növbəsində bu tədbirlərə dəstək məqsədilə karantin qaydalarına riayət etməlidirlər. Hər kəs ailəsini, yaxınlarını düşünərək maksimal dərəcədə anlayışlı olmalı, qoyulan tələblərə, verilən tövsiyələrə etinasız yanaşmamalı, gigiyenik qaydalara riayət etməli, maska taxmalı, sosial məsafəni saxlamalı, ehtiyac olmadıqda evdən çıxmamalıdır. Yalnız bu zaman biz virusa birgə qalib gələ bilərik.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# İordaniyanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırılıb

İyulun 27-də İordaniya Haşimilər Krallığının Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırılıb. Xarici İşlər nazirinin müavini Araz Əzimov ilə səfir Sami Abdulla Goşeh arasında görüş keçirilib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Görüşdə nazir müavini Araz Əzimov İordaniya səfiri ilə bu ölkənin Ermənistana silah satışı məsələsini müzakirə edib. Nazir müavini Ermənistanın işğalçı siyasətinin nəticələrinin aradan qaldırılmadığı və hələ də ərazilərimizin beşdəbirinin düşmən işğalı altında qaldığı, yüz minlərlə azərbaycanlının məcburi köçkün vəziyyətində yaşadığı və Ermənistanın iki dövlətin beynəlxalq sərhədində sonuncu hərbi təxribatının bu ölkənin təcavüzkar niyyətindən əl çəkmədiyini növbəti dəfə açıq şəkildə nümayiş etdirdiyi bir vaxtda İordaniya tərəfinin işğalçı ölkəyə silah satması ilə bağlı yayılan xəbərlərin geniş ictimaiyyətdə narazılıqla qarşılandığını səfirin diqqətinə çatdırıb.

İordaniya səfiri Azərbaycan tərəfinin narahatlığını anladığını qeyd edib. Azərbaycanla mövcud olan əlaqələrin strateji xarakterini nəzərə alaraq, mövcud narahatlığın aradan qaldırılması üçün bütün səylərini göstərəcəyini vəd edib.

# Azərbaycanın Xarici İşlər naziri Fələstinin ölkəmizdəki səfiri ilə görüşüb

İyulun 27-də Xarici İşlər naziri Ceyhun Bayramov Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı səfiri Nasir Əbdülkərim Əbdürrəhman ilə ölkəmizdəki diplomatik korpusun duayeni qismində görüşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Nazir Ceyhun Bayramov Azərbaycan və Fələstin arasında həm ikitərəfli, həm də çoxtərəfli çərçivələrdə mövcud olan dostluq və əməkdaşlıq münasibətlərindən bəhs edib, bu əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini ifadə edib. İki tərəf arasında bu günədək həyata keçirilən qarşılıqlı səfərlərin bu münasibətlərin inkişafına töhfə verdiyi qeyd olunub. Hər iki tərəfin beynəlxalq müstəvidə nümayiş etdirdiyi qarşılıqlı dəstək nazir tərəfindən xüsusi vurğulanıb.

Səfir Nasir Əbdülkərim Əbdürrəhman səmimi görüşə görə təşəkkürünü ifadə edərək Fələstin Dövlətinin Xarici İşlər naziri Ceyhun Bayramovu təyinatı münasibətilə təbrik etdiyini və nazirə Azərbaycanın milli maraqlarının beynəlxalq müstəvidə təmin olunması naminə fəaliyyətində uğurlar arzuladığını qeyd edib.

Səfir Azərbaycandakı diplomatik korpusun fəaliyyətində Xarici İşlər Nazirliyinin hər zaman əməkdaşlıq və əlaqələndirmə nümayiş etdirdiyini məmnunluqla qeyd edib.

İkitərəfli münasibətlərə toxunan səfir iki xalq arasında qardaşlıq bağları olduğunu, ölkələrimiz arasındakı əlaqələrin tarixi köklərə dayandığını qeyd edib. O, Fələstinin Azərbaycanın ərazi bütövlüyünü qətiyyətlə dəstəklədiyini və BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən qətnamələrin yerinə yetirilməsi mövqeyindən çıxış etdiyini bildirib. Həmçinin Azərbaycanın ölkəsinə göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edib.

Daha sonra səfir 12 iyul tarixində Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədində törətdiyi hərbi təxribatı nəticəsində həlak olmuş şəhidlərin ailələrinə başsağlığı verib.

Nazir Ceyhun Bayramov Ermənistan silahlı qüvvələrinin planlaşdırılmış şəkildə Azərbaycan-Ermənistan sərhədində törətdiyi növbəti hərbi təxribat və hazırda bölgədəki vəziyyət barədə həmsöhbətini məlumatlandırıb. Ermənistan tərəfinin bu təxribatla heç bir məqsədinə nail olmadığını, əksinə, özünün təcavüzkar mahiyyətini bir daha nümayiş etdirdiyini və növbəti dəfə beynəlxalq ictimaiyyətin qəti mövqeyi ilə üzləşdiyini vurğulayıb. Bölgədəki gərginliyin kökündə məhz Ermənistan respublikasının təcavüzkar siyasətinin dayandığını qeyd edən nazir Ermənistan-Azərbaycan münaqişəsinin nəticələrinin aradan qaldırılmasının zəruriliyini və münaqişənin tənzimlənməsi üzrə aparılan danışıqların da məhz bu məqsədə qulluq etməli olduğunu bildirib. Azərbaycanın mahiyyət üzrə aparılan və nəticəyə yönəlik danışıqları tələb etdiyini və danışıqlarda, sadəcə, danışıq aparılması naminə iştirak edilmədiyi nazir Ceyhun Bayramov tərəfindən vurğulanıb.

# Yeni Azərbaycan Partiyası səhiyyə işçilərinə hər birindən 1000 ədəd olmaqla üz sipəri, qoruyucu maska və birdəfəlik geyim hədiyyə edib

Yeni Azərbaycan Partiyası (YAP) koronavirusla mübarizə çərçivəsində humanitar aksiyalarını bu gün də davam etdirməkdədir.

YAP-dan AZƏRTAC-a bildiriblər ki, mart ayından etibarən başlanmış kampaniya çərçivəsində YAP bu gün də dəhşətli pandemiyanın qarşısının alınması məqsədilə dövlətin həyata keçirdiyi tədbirlərə ciddi və önəmli dəstəyini nümayiş etdirir.

Yeni Azərbaycan Partiyasının pandemiya əleyhinə mübarizə çərçivəsində təşkil etdiyi növbəti aksiya səhiyyə işçilərinə yardımın həyata keçirilməsi oldu. Belə ki, iyulun 27-də YAP səhiyyə işçilərinin COVID-19 ilə mübarizəsində, xəstələrin müalicəsinin daha rahat təşkilində onlara kömək məqsədilə hər birindən 1000 ədəd olmaqla üz sipəri, qoruyucu maska və birdəfəlik geyimləri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə təhvil verib.

Tədbirdə iştirak edən Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadə qeyd edib ki, dünyanı çənginə alan bu bəlaya qarşı mübarizə aparmaq üçün özümüzün və ətrafımızdakıların sağlamlığının qeydinə qalmaq, ruhdan düşməmək, çətinliklərin öhdəsindən gəlmək üçün səyləri birləşdirmək vacibdir. A.Mirzəzadə bildirib ki, bu gün dünyanın hər yerində, o cümlədən Azərbaycanda pandemiyanın dağıdıcı təsirlərinə qarşı mübarizə aparmaq üçün özünü riskə atan həkimlərdir, bu işin ən böyük yükü məhz onların üzərinə düşür.

# Azərbaycanda koronavirusdan daha 558 nəfər sağalıb, 396 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 558 nəfər sağalıb, 396 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 6 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 30 min 446 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 23 min 242 nəfər müalicə olunaraq sağalıb, 423 nəfər vəfat edib. Aktiv xəstə sayı 6781 nəfərdir.

Ötən müddət ərzində 690 min 386 test aparılıb. Dünənki test sayı isə 6838-dir.

# Ermənistanın işğalçılıq siyasətinin bütün dünyada ifşa edilməsinə hər kəs dəstək göstərməlidir

Xaricdə yaşayan həmvətənlərimizə qarşı erməni təxribatları ilə bağlı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) İcraiyyə Komitəsi bəyanat yayıb.

Bəyanatda deyilir: “Ermənistanın törətdiyi son təxribatlarla bağlı xarici ölkələrdəki soydaşlarımızın öz Vətənlərini dəstəkləmək üçün əvvəlcədən razılaşdırılmış dinc vətənpərvərlik aksiyaları erməni diasporunun nümayəndələri tərəfindən fiziki zorakılıq, aqressiya və qeyri-insani nifrət hissi ilə üzləşib. Ermənistanın mənəvi dəstəyi ilə psixoloji və fiziki zorakılığa əl atılan belə təxribatlar Fransa, Böyük Britaniya, İsveç, Polşa, Avstraliya, ABŞ, Niderland və Belçikada baş verib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xarici ölkələrdə yaşayan yüz minlərlə həmvətənlərimizin bu hadisələrlə əlaqədar keçirdiyi hiss və həyəcanı dərindən başa düşərək radikal ermənilər tərəfindən soydaşlarımıza qarşı törədilən bu əməlləri qətiyyətlə pisləyir. Bu kimi təxribatların qarşısının alınmasına məsul olan ölkələrin hüquq-mühafizə orqanlarının vəzifələrinə tam məsuliyyətlə yanaşmalarını gözləyirik.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışında qeyd edildiyi kimi, harada yaşamağımızdan asılı olmayaraq hamımızın üzərinə düşən əsas vəzifə həssas zamanda sayıqlıq, soyuqqanlılıq, həmrəylik nümayiş etdirmək, ermənilərin iç üzünü dinc yollarla, təmkinlə ifşa etmək, təxribatlara yalnız hüquqi müstəvidə, qanunvericilik çərçivəsində cavab verilməsinə nail olmalıyıq. Bütün vasitələrdən istifadə etməliyik ki, ölkəmizin ən böyük problemi olan Dağlıq Qarabağ probleminin həllinə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsinə öz töhfəmizi verək.

Əminliklə ifadə etmək istərdik ki, xarici ölkələrdə yaşayan həmvətənlərimiz bu məsələdə də birlik və həmrəylik nümayiş etdirəcək, dövlətimizin və Prezidentimizin Ermənistanın işğalçılıq siyasətinin bütün dünyada ifşa edilməsinə yönəlmiş fəaliyyətinə öz dəstəklərini əsirgəməyəcək, ermənilərin mənfur siyasətinin bütün istiqamətlərdə ifşa olunmasına nail olacaqlar”.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 45 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 45 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Berd rayonunun Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Muncuqlu kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər, Göyəli kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Vətənlə bərabər milləti də satanlar

## Ermənidən betər ermənilik

### Azərbaycan həqiqətləri qarşısında aciz qalan erməni lobbisi bu dəfə xalqımıza qarşı əsas "silahlarını" aktivləşdirmək məcburiyyətində qalıb

*Əvvəli 1-ci səh.*

Soydaşlarımızın ABŞ-da, Avropanın müxtəlif şəhərlərində keçirdikləri dinc aksiyalar zamanı erməni vandallarının etdiyi vəhşiliklər kimin kim olduğunu bir daha aydınlaşdırır.

Dünya birliyinin bu vəhşiliyə də göz yummasına, cinayətkarların cəzasız qalmasına nə qədər təəssüflənsək də, hiddətlənsək də, yaxşı anlayırıq ki, nə xristian təəssübkeşliyi, nə də əsl erməni xisləti dəyişəsidi...

### Erməni ilə həmrəy olan riyakarlar

Bütün bu gerçəkliklər fonunda Azərbaycan öz sivil mübarizəsindən bir addım da geri çəkilmir və erməni yalanının ifşası üçün dövlətini, millətini sevən hər kəs əlindən gələni əsirgəmir.

Lakin təəssüflə qeyd etməliyik ki, əsl həqiqətləri sivil formada dünyaya bəyan etmək imkanlarımız daha da genişləndiyi bir zamanda içimizdən çıxan xainlər də erməni təəssübkeşliklərini ortaya qoyublar. Bu xalqın onlara olan nifrət hissini daha da artırıb və dünya azərbaycanlılarını bərk hiddətləndirib.

Həmin üzdəniraq ünsürlər hər zaman Azərbaycanın uğurlarına kölgə salmaqla, dünyada etibarlı tərəfdaş kimi qəbul olunmasına qarşı çıxmaq istəyən qüvvələrə dəstək verməklə kimlərə "xidmət" etdiklərini əvvəllər də nümayiş etdiriblər. Ancaq bu dəfə işğalçıya, terrorçuya haqq qazandırmaqla, dünyanın gözü qarşısında baş verən hadisələrə görə Azərbaycanı ittiham etməklə əsl riyakarlıqlarını ortaya qoydular.

Necə ola bilər ki, bir insan əzizlərini, yaxınlarını vəhşicəsinə qətlə yetirən, xalqına qarşı soyqırımı aktları həyata keçirən terrorçuya dəstək olsun?!

İnsan nə dərəcədə xalqına, dövlərinə nifrət etməlidir ki, əli millətinin qanına batan erməni ilə hərməy olsun?!

Nə yazıq ki, belə riyakarlarımız, xalq düşmənlərimiz də var və indiyədək kimlər tərəfindən "bəslənildikləri" açıq-aşkar üzə çıxır. Düşmən onlardan Azərbaycana qarşı silah kimi istifadə etməyə başlayıb. Yəni hərbi savaşlarda, siyasi meydanlarda, sivil yolla mübarizədə Azərbaycana uduzan Ermənistan və xaricdəki erməni lobbisi xainləri əlində əsas silah kimi saxlayırmış. ABŞ-da, Avropada azərbaycanlıların bir yumruq kimi birləşib dünya birliyindən ədalət tələb etməsindən qorxuya düşən erməni təəssübkeşlikləri son varianta əl atıb Azərbaycana qarşı əsas "silahlarını" aktivləşdirdilər. Xaricdəki antimilli şəbəkənin sinxron şəkildə Azərbaycan dövlətinin və xalqının üzərinə hücuma keçməsi hər şeyi çılpaqlığı ilə ortaya çıxardı.

### Xalqının mənafeyini deyil, qrantı üstün tutan buqələmunlar

Soydaşlarımızın müxtəlif ölkələrdə keçirdikləri dəstək aksiyaları zamanı ermənilərin insanlığa sığmayan hərəkətlərinə dünya şahidlik etdi. Lakin daxildəki "beşinci kolon"un və xaricdəki antimilli şəbəkənin buyruq qulları - AXCP sədri Əli Kərimli, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli və digər bu kimiləri ermənilərin tapşırığı ilə eyni tezislər əsasında bəyanatlar verməyə və çıxışlar etməyə başladılar.

Bu şəxslər xaricdə azərbaycanlıların Ermənistanın işğalçılıq siyasətinin əleyhinə olan aksiyalarını xuliqanlıq, quldurluq, vətənşüvənlik kimi qələmə verməyə çalışdılar. Azərbaycanlıların vətənpərvərlik aksiyalarını ləkələməyə, onun mahiyyətini təhrif etməyə çalışdılar. Bununla da ermənilərin mövqeyinə xidmət göstərməyə, onların cinayətkar əməllərinə bəraət qazandırmağa cəhd etdilər.

Xalq bir daha xarici ölkələrə sığınıb dövlətimizə və millətimizə xəyanət edən bu ünsürlərin əsl riyakar, xain sifətlərini gördü. Hər kəsə bir daha bəlli oldu ki, onlar üçün Azərbaycan xalqının mənafeləri vacib deyil, onları yalnız erməni lobbisinin qrantları, ianələri və göstərişləri maraqlandırır. Əgər belə olmasaydı, Ermənistanın işğalçılıq siyasətinə görə həmrəylik nümayiş etdirən, xaricdə səfirliklərimizi, bayrağımızı, milli qürurunu müdafiə edən, Qarabağ deyib orduya və dövlətə dəstəyini bildirən azərbaycanlılara xaincəsinə hücum etməzdilər.

Erməni siyasi mətbəxində hazırlanan tezislər əsasında bayrağının və şəhidinin qürurunu qoruyan azərbaycanlılara bandit, xuliqan, vətənşüvən deyən Sevinc Osmanqızının səsləndirdiyi fikirlər onun əsl xislətini üzə çıxardı. Baş verən erməni terror aksiyalarından sonra efirə çıxıb "Təhlükə yoxdur, sivil mübarizə aparılmaqdadır, mən sizi inandırıram ki, heç erməni tərəfində belə bir niyyət yoxdur. Bu gün bu sivil mübarizəni pozan Azərbaycan tərəfidir. Rəsmi Bakıdır bu qarşıdurmanı təşkil edən..." fikrini səsləndirməklə ermənilərin hüquqlarının müdafiəçisi olduğunu bir daha isbatlamış oldu. Erməni lobbisi ABŞ-da, Avropada Dağlıq Qarabağın Ermənistan ərazisi olduğunu iddia edəndə səsini çıxarmayan bu şəxs azərbaycanlıların həmin ölkələrdə öz haqqını tələb etməsindən çox narahatlıq keçirir.

Öz Vətəninə, ordusuna dəstək nümayiş etdirən, dünyadan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqe tələb edən dinc insanlar nə zamandan bandit, xuliqan hesab ediliblər?

Həqiqətən bu insanın içində Azərbaycana nifrət, xalqımıza qarşı kin formalaşıb. Yoxsa, ermənilərin çirkin əməllərinə qarşı çıxanlara, bayrağını qoruyanlara, şəhidini ananlara kim bandit, vətənşüvən deyə bilər?!.

Azərbaycan xalqı əsl həqiqətlərə şahidlik etdi. Hər kəs gördü ki, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli kimi erməni süfrəsindən qidalananlar silahı bizə qarşı tuşlayıblar. Erməni lobbisi məhz bu üzdəniraqlar vasitəsilə azərbaycanlıları təhqir etdirirlər.

Bu səbəbdən də ehtiyatlı olmalıyıq. Hər bir azərbaycanlı bilməlidir ki, düşmənimiz ermənilərdirsə, içimizdə onlardan geri qalmayan düşmənlərimiz də var. Onlardan istənilən zaman bizə qarşı silah kimi istifadə edirlər.

Prezident İlham Əliyev haqlı olaraq deyir ki, onlar ermənilərdən də pisdirlər...

